Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# İranın Azərbaycanda dini və milli tolerantlığı pozmaq siyasəti iflasa məhkumdur...

**Əsrlərdir öz tolerantlığını qorumağa müvəffəq olan Azərbaycan müasir dünyada çoxmillətli, çoxkonfesiyalı dövlətdir. Burada yaşayan hər bir etnik qrupa, xalqa, dinlərə qarşı heç bir ayrı-seçkilik mövcud deyil. Azərbaycanda mövcud olan tolerantlıq və multikulturalizm xalqların, dinlərin inkişafına ciddi şərait yaradır.**



Bu gün Azərbaycan sağlam dini mühitə mənsub dövlətdir və burada istənilən qüvvə qarışıqlıq yarada bilmir. Çünki xalqların və dinlərin azad şəkildə inkişaf etdiyi, xalqlar arasında qardaşlıq-dostluq kimi mühüm amillərin olduğu şəraitdə hansısa qüvvələrin təxribatları beşiyində boğulur. Cənub qonşumuz olan İranın Azərbaycana qarşı çoxsaylı təxribatları kimi. Bildiyimiz kimi, illərdir ki, molla rejimi dövlətimizin ərazi bütövlüyünə, müstəqilliyinə qarşı müxtəlif qəsd planları ortaya qoyur, bizim içimizdən özünə muzdlu tərəfdarlar toplayır və onların əli ilə ölkəmizdə konstitutsiya quruluşunu dəyişməyə cəhdlər göstərir. Son 30 ildə biz ölkə daxilində molla rejiminin buna yönəlik bir neçə təxribatının şahidi olmuşuq, Gəncə terrorunu yaşamışıq. Çox təəssüflər olsun ki, ölkə daxilində molla rejiminin əl buyruqçusu olanlar da tapılır və onların çoxunun məscidlərdə toplaşdığı məlum olur. Hətta onlar arasında məscid axundlarının olduğu da gizlin deyil. Azərbaycanın hüquq-mühafizə orqanlarının, DTX-nın keçirdiyi əməliyyatlar nəticəsində İranın casus şəbəkəsinin xeyli sayda üzvü ifşa olunaraq həbs edilib.

Bildirək ki, Azərbaycanda İranın casus şəbəkəsinə daxil olanlar sırasında bəzi media qurumları da vardı və onlar da bir neçə həftə əvvəl ifşa ediliblər. Bu gün hər bir sahədə İranın casus şəbəkəsinə daxil olan qondarma dindarların zərərsizləşdirilməsi prosesi gedir. Demək olar ki, hər gün yeni həbslər baş verir və cəmiyyət Vətən xainlərini tanıyır. Onlar vətənə xəyanətdə ittiham edilirlər. Öz vətəninə xəyanət edənləri isə nə cəmiyyət, nə də dövlət bağışlayar.

### "...Casus şəbəkəsinin zərərsizləşdirilməsi istiqamətində görülən işlər..."

Müasir İnkişaf Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü "Bakı-Xəbər"ə şərhində bildirdi ki, istənilən dövlətin dövlətimizin içində dini, milli və digər zəmində təxribat cəhdlərinin qarşısı hüquq-mühafizə orqanları tərəfindən dərhal alınır: "Hansısa dövlətin, onun xüsusi xidmət orqanlarının Azərbycanı qarışdırmaq cəhdləri baş tuta bilməz, tutmur da. Azərbaycan dövlətinin aidiyyatı qurumları, təhlükəsizlik orqanları, ictimaiyyət də ayıq-sayıqdır. İranın təlimatı ilə ölkəmizdə qarışıqlıq yaratmaq, sabitliyi pozmaq istəyən cəsus şəbəkəsi ifşa olunur. Düşünürəm ki, İranın ölkəmizdə qurduğu cəsus şəbəkəsinin üzvlərinin ifşa edilməsi prosesi davam edəcək. Əlbəttə, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, sabitliyə qəsd etmək istəyən cəsus şəbəkəsinin zərərsizləşdirilməsi istiqamətində görülən işlər cəmiyyət tərəfindən müsbət qiymətləndirilir".

### "Bu təxribat cəhdləri iflasa uğrayacaq, necə ki, uğrayır da..."

Azərbaycan cəmiyyətinin dövlətimizin əsaslarını, sütunlarını sarsıtmaq istəyən istənilən qüvvəyə qarşı barışmaz olduğunu deyən M.Göyüşlü qeyd etdi ki, Tehran rejimi əlaltılarının da ifşasını cəmiyyətimiz dəstəkləyir. "Azərbaycan milli və dini tolerantlıq mövcuddur. Bura müxtəlif dinlərin, millətlərin nümayəndələrinin birgə, dinc, yanaşı yaşadığı bir ölkədir və dünyada multikulturalizmin, birgəyaşayış ənənələrinin nümunəsidir. Bu mənada kimlərinsə ölkəmizdə dini və milli müstəvidə hər hansı bir qarışıqlıq yarada bilməz. Bu təxribat cəhdləri iflasa uğrayacaq, necə ki, uğrayır da. İranın Azərbaycanda din pərdəsi altında hansısa hərəkət göstərmək istəməsi mümkün deyil. Bu ölkənin sabitliyi, ərazi bütövlüyü, müstəqilliyi qorunur və vətəndaşlarımız bu məsələdə də dövlətlə həmrəy, həmfikirdir.

Molla rejiminin Azərbaycanı bu kimi casus şəbəkəsi ilə qorxutmaq, tutduğu haqq yolundan sapdırmaq, ona bu üsullarla təsir etmək, istəklərini həyata keçirmək mümkün ola biləcək bir məsələ deyil. Bunu hər bir qonşu dövlət, beynəlxalq təşkilat, siyasi-ictimai institut və fərdlər bilməlidirlər. Bu mənda fikrimcə, qonşu ölkənin bu cür addımları indən sonra da iflasa uğrayacaq. Cəmiyyət də məhz Azərbaycan dövlətinin tutduğu mövqeni dəstəkləyir".

Özünə "islam respublikası" adı götürən İran adlanan dövlətin Azərbaycana qarşı açıq düşmənçilik siyasəti, təxribatları, mənfur əməlləri davam edir və biz hər gün bunun yeni bir "nümunəsi"ni görürük. Din pərdəsi altında bir qrup Azərbaycan gəncinin dini inancından, dini təhsil almaq arzusundan sui-istifadə edərək onları öz təsirinə salan molla rejimi Qumda və başqa şəhərlərdə Azərbaycana qarşı düşmən qüvvələri yetişdirib. Sağlam islamdan uzaq bu insanlar molla rejiminin casus şəbəkəsinin üzvlərinə çeviriliblər. Bilirik ki, İranın Azərbaycanda konstitutsiya quruluşunu dəyişdirmək üçün mənfur planı var və bu planı da "Hüseyniyyun" terror təşkçilatının üzvləri vasitəsilə həyata keçirmək istəyir. Onlar buradakı emsarlarının vasitəsilə daxildə anti-Azərbaycan siyasəti həyata keçiriblər. Son proseslərdən və həbs dalğasından sonra isə İran qulbeçələrinin səsləri elə də eşidilmir, onların çoxu gizlənib. Amma həbs edilənlərin ifadələrindən açıq görsənir ki, İran Azərbaycanda hansı əməllər planlayır. Azərbaycan dövlətində yaşayıb, Azərbaycan məscidində "ibadət" edib İranın təəssübünü çəkənlərin hamısı bir-bir ifşa olunacaq. Əlbəttə, bu cəmiyyətin ən böyük arzularından biridir ki, erməni ilə qardaş olan molla rejiminin casus şəbəkəsinin kökü tamamilə Azərbaycandan kəsilsin.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**